# Azərbaycanda idmanın inkişaf tarixi

## XII yazı

***İdman sağlamlıq və gözəllikdir. Bəlkə, buna görə, "Sağlam bədəndə sağlam ruh olar" deyimi heç də təsadüfi deyil. Bədən tərbiyəsi və idman ümumi tərbiyənin bir hissəsi, cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi, insanların sağlamlığını möhkəmlətməyə, fiziki bacarığını inkişaf etdirməyə yönəldilmiş ictimai fəaliyyət sahəsidir. İdman təkcə idmançılar arasında deyil, həm də xalqlar arasında dostluq münasibətlərinin yaranması və möhkəmlənməsində də mühüm rol oynayır. Sovetlər dönəmində Azərbaycanın müttəfiq respublikalar ilə idman əlaqələri xeyli genişlənmiş, idmanın bütün sahələrində ustalığın nümayişi və təcrübənin bölüşdürülməsi üçün əlverişli imkanlar, doğma, qardaşlıq münasibətləri olmuşdur.***

*(əvvəli qəzetimizin 9-cu sayında)*

1981-ci ilin iyun ayında Qırğızıstanın Qarabalta şəhərində keçirilən kartinq üzrə Ümumittifaq yarışı Azərbaycan idmançıları üçün uğurlu olmuşdu. Sovet İttifaqı Qəhrəmanı Ç.Tulaberdiyevin xatirəsinə həsr edilmiş bu yarışlarda kosmonavt Yuri Qaqarin adına Bakı pioner və məktəblilər sarayının oğlanlardan ibarət komandası birinci yeri tutmuşdular. Təmsilçilərimiz eyni zamanda müharibə veteranlarının xüsusi mükafatına da layiq görülmüşdülər. Belə ki, 134 saylı məktəbin beşinci sinif şagirdi Fərid Quliyev 50 kubsantimetr həcmli mühərriki olan maşınların yarışında finişi daha tez keçmişdi. F.Quliyevin yetişməsində avtomodel idmanı üzrə dəfələrlə ölkə çempionu olmuş atası Ramiz Quliyevin böyük köməyi olmuşdur.

1982-ci ilin fevral ayının sonları - martın əvvəllərində Bakıda su polosu üzrə güclülər dəstəsinin ölkə çempionatının ikinci turu keçirilmişdi. Qırmızı Bayraq ordenli Xəzər Donanmasının su polosçuları Alma-Ata "Dinamo"çuları üzüzə gəlmişdilər. Həmin görüşdə təmsilçilərimiz 1 top fərqilə uduzmuşdular - 6:7. Moskva Dövlət Universitetinin (MDU) komandası Tbilisi "Dinamo"çularına 9:8, "Moskviç" komandası isə Lvov "Dinamo"çularına 6:4 hesabı ilə qalib gəlmişdilər. Ölkə çempionları həmin turda daha yaxşı oynayaraq, yarışların sonuncu günü tbilisili həmkarlarına 9:6 hesabı ilə qalib gəlməklə liderliyi əldə saxlamışdı. Moskva Dövlət Universitetinin su polosçuları da son görüşdə lvovlulardan üstün olmuşdular - 9:8. Çempionatın yarış cədvəlinə görə Alma-Ata "Dinamo"çuları 27 xalla birinci olmuşdu. MDU 25 xalla ikinci, Moskva "dinamo"çuları 24 xalla üçüncü olmuşdu. Xəzər Donanmasının komandası və tbilisililər 17 xal toplamışdılar.

Aprel ayının əvvəllərində Özbəkistanın gənc şahmatçılarından ibarət yığma komandası Bakının qonağı olmuşdular. Onlar yığma komandamızın üzvləri dörd yoldaşlıq görüşü keçirmişdilər. Bu görüşün keçirilməsində əsas məqsəd gənclərin qarşıdakı üçüncü Ümumittifaq idman oyunlarına hazırlıqlarını daha da yaxşılaşdırmaq idi. Oyunlarda Özbəkistan şahmatçıları daha yüksək ustalıq nümayiş etdirərək, 20,5:11,5 hesabı ilə qalib gəlmişdilər. Komandamızda idman ustalığına namizədlər A.Avşalumov və S.Mehribanov fərqlənmiş, dörd mümkün xaldan müvafiq olaraq 2,5 və 3,5 xal toplamışdılar.

Komandan oxatma üzrə Ümumittifaq turniri 1982-ci ilin aprelində Daşkənddə təşkil olunmuşdu. 25 nəfərdən ibarət kişilərin yarışında tanınmış idmançı Ç.V.Yeşeyev topladığı 2569 xalla birinci yeri tutmuşdu. Ondan 24 xal geridə qalan bakılı V.Maksimov (2544 xal) ikinci yeri tutaraq, gümüş medala yiyələnmişdi.

Qadınların yarışında Moskva Olimpiadasının qalibi, dünya və Avropa çempionu N.Butuzova qalib gələrək, 144 oxla 1324 xal toplamışdı. Bununla da o, özünə məxsus dünya və ölkə rekordlarını yeniləmişdi.

İyun ayında akrobatika üzrə Düşənbədə keçirilən Tacikistan birinciliyində yerli idmançılarla yanaşı, Əndican, Bryansk, Ufa şəhərlərinin nümayəndələri və 4 nəfərdən ibarət Dəvəçi (Şabran) məktəbliləri iştirak etmişdilər. Təmsilçilərimizin Düşənbədəki çıxışları uğurlu olmuşdu. 2 nömrəli orta məktəbin 7-ci sinif şagirdi Faiq Hüseynov ustalığa namizəd proqramı üzrə yarışlarda ən yüksək nəticə göstərmiş, Tacikistan çempionu adını qazanmışdı. Rayonun 1 nömrəli orta məktəbin şagird Kamil Hacıyev və Eldar Ömərov birinci dərəcəli idmançı normasını ödəmişdilər.

Həmin ilin iyun ayında Şamaxıda keçirilən kamandan oxatanların yarışında qələbə uğrunda 12 müttəfiq respublikanın 115 nəfər idmançısı mübarizə aparmışdı. Dörd gün davam edən yarışın yekunlarına əsasən 1039 xal toplaya rusiyalı oxatanlar 1-ci yerə layiq görülmüşdü. Ukraynalılar (670 xal), moldovalılar (634 xal) isə ilk üçlükdə qərarlaşmışdılar. Azərbaycan təmsilçiləri 585 xal toplayaraq, ümumi hesabda 4-cü yerlə kifayətlənmişdilər. Fərdi yarışlarda kişilər arasında qazaxıstanlı S.Krivaşin, qadınların yarışında rusiyalı idman ustası N.Bolotova fərqlənmişdi.

Azərbaycan idmançıları arasında ən yaxşı nəticəni zaqatalalı beynəlxalq dərəcəli idman ustası N.Denisenkova göstərmişdi. O, ümumi hesabda dördüncü yeri tutmuşdu. N.Denisenkova 30 və 70 metr məsafələrə ox atmaqla bürünc medal əldə etmişdi.

1982-ci ilin avqustunda kənd idmançılarının IV Ümumittifaq idman oyunları çərçivəsində Bakıda Qırmızı Bayraq ordenli Xəzər donanmasının idman sarayında qadın həndbolçuların ilkin mərhələ yarışları keçirilmişdi. Finala çıxmaq üçün 4 vəsiqə uğrunda 11 komanda mübarizə aparmışdı. "Məhsul" cəmiyyətinin həndbolçuları yarışların sonuncu günü Tacikistan idmançılarına böyük hesabla (45:11) qalib gəlmişdilər. Komandamız finalda Ukraynanın "Kolos", Estoniyanın "Yıud" və Latviyanın "Varpa" komandaları ilə birlikdə oynamaq hüququ qazanmışdılar.

Otüstü hokkey üzrə ölkə çempionatının ikinci dövrəsi 1982-ci ilin avqustunda Özbəkistanın Əndican və Fərqanə şəhərlərində keçirilmişdi. Bu komanda idman növü üzrə ən güclülərdən sayılan Alma-Ata "dinamoçu"ları növbəti turda Əndicanda "Zvezda" komandası ilə üz-üzə gəlmişdi. Həmin görüşdə qazaxıstanlılar hər iki görüşü (2:1 və 1:0) qələbə ilə başa vurmuşdu - 47 xal. Onların əsas rəqibləri hesab edilən Sverdlovskın ordu idmançıları "Start"la qarşılaşmışdı. İlk görüş qonaqların xeyrinə bitmişdi (3:1), cavab görüşündə (1:1) isə qalib müəyyənləşməmişdi. Sverdlovsklılar 43 xalla ikinci, əndicanlılar isə 31 xal toplamışdılar. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun hokkeyçiləri Fərqanədə "Ximik"lə iki görüşdə ancaq bir xal toplaya bilmişdi. Sumqayıtın "İnşaatçı" komandası isə Səmərqənddə yerli "spartak"çılarla keçirdikləri hər iki oyunda məğlub olmuşdular. Tələbələrdən ibarət komandamız yarışın favoriti olan "Zvezda"ilə görüşdə 3:2 hesablı qələbəyə sevinmişdilər. Həmin ilin oktyabrında Düşənbədə stolüstü tennisçilərin ölkə çempionatında iştirak edən kişilərdən ibarət yığma komandamız mükafatçılar sırasında yer almışdılar. Üçüncü yer uğrunda mübarizədə komandamız 7:5 hesabı ilə moskvalı idmançılara qalib gələrək, bürünc medala layiq görülmüşdülər. Qadınlardan ibarət yığma komandamız çempionatı on birinci yerdə pillədə tamamlamışdılar.



1983-cü il zəngin idman yarşları ilə yadda qalmışdı. Həmin ilin yanvar ayında su polosu üzrə ölkə çempionatının Bakı və Kiyevdə keçirilən növbəti turuna yekun vurulmuşdu. Xəzər Donanmasının təmsilçiləri ilə yanaşı Hərbi Dəniz Donanması Mərkəzi İdman Klubu, Daşkəndin "Möhnət", Tbilisi, Moskva və Alma-Ata "dinamoçu"ları yarışmışdılar. Gərgin keçən qarışlaşmalarda bütün görüşləri qələb ilə ba vuran komanda qeydə alınmamışdı. Azərbaycan Hərbi Dəniz Donanmasının komandası Alma-Ata "dinamoçuları"nı cəmi bir topla qabaqlamışdı - 11:10. Moskva təmisçiləri ilə görüşdə qalib müəyyənləşməmişdi - 11:11.

Yanvar ayının sonu-fevral ayının əvvəllərində Qazaxıstanın Karaqanda şəhərində "Spartak" cəmiyyəti mərkəzi şurasının birinciliyi uğrunda sərbəst güləş üzrə yarışlar təşkil edilmişdi. Yarışlarda bütün müttəfiq respublikaların, Moskva və Leninqrad şəhərlərinin 150 nəfərədək güləşçisi iştirak etmişdi. 48 kq çəki dərəcəsində çıxış edən Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (İndiki AİA) tələbəsi Yəhya Novruzov altı görüşdən beşində qalib gələrək, birinci yerə layiq görülmüşdü. Tale Əhmədov həmin çəki dərəcəsində üçüncü yerlə kifiayətlənmişdi. Azərbaycan güləşçiləri həmin birincilikdə ümumi hesabda dördüncü yerə layiq görülmüşdülər.

Fevralda Azərbaycan Həmkarlar İttifaqları Şurasının idman sarayında birinci dəstədə çıxış edən qadınlardan ibarət voleybol komandaları arasında ölkə çempionatının ikinci final turuna start verilmişdi. Yarışlarda Alma-Ata idmançıları ilə bərabər Moskva, Kaunas, Omsk, Qrodno idmançıları da iştirak etmişlər. İlk görüşü Alma-Ata evtikmə kombinatının idmançıları ilə keçirən Bakı Məişət Kondisioneri zavodunun voleybolçuları qonaqlara 3:2 hesabı ilə məğlub olmuşdular.

Fevralın sonlarında Alma-Ata "Urojay" Cəmiyyəti Mərkəzi Şurasının birinciliyi uğrunda boks yarışlarına da ev sahibliyi etmişdi. Yarışlara 14 şəhərin 120 nəfərə yaxın gənc boksçu qoşulmuşdu. Azərbaycanın "Məhsul" cəmiyyətinin yetirmələri bu yarışda uğurla çıxış etmişdilər. Təmsilçilərimizdən A.Məmmədov (51 kq) gümüş, A.Nəsirov isə (48 kq) bürünc medala sahib olmuşdular.



Bu uğurlu nəticələrinə görə, hər iki idmançımız cəmiyyətin mərkəzi Şurasının yığma komandasının tərkibinə daxil edilmiş və SSRİ birinciliyi uğrunda yarışlarda iştirak imkanı əldə etmişdilər.

Martın 11-dən 31-dək Daşkənddə Özbəkistanın məşhur şahmatçısı Əzməddin Xocayevin xatirəsinə həsr edilmiş Ümumittifaq turniri gərgin mübarizə şəritində keçmişdi. Turnirdə ölkəmizin müxtəlif şəhərlərindən gəlmiş 16 nəfər (14 nəfər idman ustası) tanınmış şahmatçı iştirak etmişdi. Daşkənd turnirində idman ustası Fikrət Sideifzadə ümumi hesabda dördüncü yerə layiq görülmüşdü.

Aprel ayının əvvəllərində Qazaxıstanın Alma-Ata şəhərində "Urojay" Cmiyyəti Mərkəzi Şurasının birinciliyi uğrunda gənc samboçuların yarışı da maraqla qarşılanmışdı. Bir həftə davam edən birincilikdə Azərbaycan "Məhsul" cəmiyyətinin üzvü İ.Hacıyev (56 kq) birinci və E.Sultanov (48 kq) isə üçüncü yeri tutmuşdu. Həmin ərəfədə Frunzedə yüksək idman ustalığı məktəbləri arasında stend atıcılığı üzrə Ümumittifaq yarışlarının mükafatçıları müəyyənləşmişdi. 17 komanda mübarizəsində idmançılarımız ümumi hesabda altıncı yerlə kifayətlənmişdilər. Dairəvi atəşaçmada "Məhsul" cəmiyyətinin yetişdirməsi X.Bağırov gümüş medala yiyələnmişdi.

*(ardı var)*

***Əzizağa Ələkbərli,***
***Azərbaycan MEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***